Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi

İQTİSADİ
ELMİ
TƏDQİQAT
İNSTİTUTU

# İQTİSADİ ELMİ TƏDQİQAT İNSTİTUTUNDA YERİNƏ YETİRİLMİŞ ELMİ-TƏDQİQAT İŞLƏRİNİN REFERATİV TOPLUSU

## (2024-cu il üzrə)

Bakı - 2024

# İQTİSADİ ELMİ TƏDQİQAT İNSTİTUTUNDA YERİNƏ YETİRİLMİŞ ELMİ-TƏDQİQAT İŞLƏRİNİN REFERATİV TOPLUSU (2024-cü il üzrə)

*© ESRİ, Bakı, 2024*

# MÜNDƏRİCAT

**ÖN SÖZ** ..... **5**

**İŞ PLANI ÜZRƏ YERİNƏ YETİRİLMİŞ İŞLƏR** ..... **6**

2024-CÜ İL ELMİ-TƏDQİQAT VƏ ANALİTİK TƏHLİL İŞLƏRİ ..... 6
İSTEHLAK MALLARI ÜZRƏ QİYMƏTLƏRİN DİAQNOSTİKASI VƏ QİYMƏT DƏYİŞİKLİKLƏRİNİN İQTİSADİ TƏSİRLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ ..... 6
XAM NEFT VƏ XAM NEFT EMALI MƏHSULLARININ QİYMƏTİNİN TƏNZİMLƏNMƏSİNİN AZƏRBAYCAN İQTİSADİYYATINA TƏSİRİDİR ..... 7
İDXALI ƏVƏZLƏNƏ BİLƏN MƏHSULLARIN MÜƏYYƏNLƏŞDİRİLMƏSİ VƏ İSTEHSAL İMKANLARINA BAXIŞ ..... 8
REAL SEKTORUN MONİTORİNQİ (ÜDM QISA MÜDDƏTLİ PROQNOZUNUN HAZIRLANMASI) ..... 11
2021-Cİ İLİN ÜZƏRİNDƏN SHM QURULMASI ..... 12
ELMİ POTENSİALIN GÜCLƏNDİRİLMƏSİ SAHƏSİNDƏ TƏŞVİQ MEXANİZİMLƏRİNİN FORMALAŞDIRILMASI SAHƏSİNDƏ BEYNƏLXALQ TƏCRÜBƏNİN ÖYRƏNİLMƏSİ ..... 12
TƏHSİL SİSTEMİNDƏ ELMİ TƏDQİQATLARA VƏ İNKİŞAF LAYİHƏLƏRİNƏ AYRILAN XƏRCLƏRİN ARTIRILMASI VƏ RƏQABƏTLİ ƏSASDA LAYİHƏLƏRİN MALİYYƏLƏŞDİRİLMƏSİ ÜZRƏ BEYNƏLXALQ TƏCRÜBƏNİN ÖYRƏNİLMƏSİ ..... 13
BARAMAÇILIQ VƏ İPƏKÇİLİK SAHƏSİNDƏ KLASTER YANAŞMANIN TƏTBİQİNİN DƏSTƏKLƏNMƏSİ ÜÇÜN BEYNƏLXALQ TƏCRÜBƏ ƏSASINDA TƏKLİFLƏRİN HAZIRLANMASI ..... 14
BARAMA İSTEHSALI VƏ EMALI SAHƏSİNDƏ İNNOVATİV LAYİHƏLƏRİN DƏSTƏKLƏNMƏSİ ÜÇÜN BEYNƏLXALQ TƏCRÜBƏ ƏSASINDA TƏKLİFLƏRİN HAZIRLANMASI ..... 14
İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİ VAHİDLƏRİ ÜZRƏ SOSİAL-İQTİSADİ PASPORTLARIN HAZIRLANMASI ..... 15
SÜNİ İNTELLEKTİN TƏTBİQİ VƏ ONUN İQTİSADİYYATA GÖZLƏNİLƏN TƏSİRLƏRİ ..... 16
RƏQƏMSAL İQTİSADİYYATA KEÇİD XÜSUSİYYƏTLƏRİ: BOŞLUQLAR, TƏSİRLƏR, HƏLLƏR ..... 16
İQTİSADİ TƏHLİLDƏ SÜNİ İNTELLEKTİN TƏTBİQİ İMKANLARI VƏ MÖVCUD PROBLEMLƏR ..... 17
RƏQƏMSAL İQTİSADİYYATIN İQTİSADİ ARTIMA TƏSİRİNİN ÖLÇÜLMƏSİ ..... 18
AZƏRBAYCANDA "YAŞIL UNİVERSİTET" POTENSIALI TƏDQİQATI ..... 18
"AÇIQ ELM" PLATFORMASININ YARADILMASI ÜZRƏ TƏKLİFLƏR ..... 19

**ELMİ VƏ PRAKTİKİ NƏŞRLƏR** ..... **20**

İNSTİTUTUN KEÇDİYİ ELMİ YOL – 60. Seçilmiş məqalələr (2000-2020-ci illər) ..... 20
ELMİ FƏALİYYƏTİN 60 İLİ: KEÇMİŞDƏN GƏLƏCƏYƏ ..... 20

“AZƏRBAYCANDA İQTİSADİ İSLAHATLARIN HƏYATA KEÇİRİLMƏSİ XÜSUSİYYƏTLƏRİ VƏ PROBLEMLƏRİ” ELMİ ƏSƏRLƏR TOPLUSU XXII BURAXILIŞ ...... 20
“YENİ NƏSİL İQTİSADİYYAT: ÇAĞIRIŞLAR VƏ PERSPEKTİVLƏR” BEYNƏLXALQ ELMİ VƏ PRAKTİKİ KONFRANS MATERİALLARI ...... 21
“YENİ NƏSİL İQTİSADİYYAT: RƏQƏMSALLAŞMA VƏ İNKİŞAF” KİTABI ...... 21
“YAŞIL” BACARIQLAR...... 21
“İNFRASTRUKTUR ƏLAQƏLƏRİNİN GÜCLƏNDİRİLMƏSİ: TÜRK DÜNYASININ NƏQLİYYAT VƏ ENERJİ ƏLAQƏLƏRİNDƏ AZƏRBAYCANIN ROLU ...... 22
**Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ...... 23**

# ÖN SÖZ

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin İqtisadi Elmi Tədqiqat İnstitutu 60 illik böyük bir tarixə və zəngin ənənələrə malikdir. İnstitutda aparılan elmi-tədqiqatlar ölkəmizdə makroiqtisadi sabitliyin qorunması və tənzimlənməsinin həyata keçirilməsi, davamlı inkişafın təmin olunması, regionların və sahibkarlığın inkişafı, qeyri-neft sektorunun, əsas etibarı ilə onun ixrac potensialının artırılması məqsədi ilə iqtisadi sahələrin diversifikasiya olunmuş inkişafı, mənzil-kommunal və infrastrukturun inkişafı istiqamətləri üzrə aparılan uğurlu siyasətin hədəflərinə uyğunlaşdırılmaqla, bu istiqamətlərə müvafiq qısa, orta və uzunmüddətli proqnoz və planların tərtib olunması üzrə model və usulların işlənilməsinə yönəldilmişdir. İnstitut milli iqtisadiyyatın müxtəlif sahələrinin və regionların davamlı inkişafına dair elmi-tətbiqi tədqiqatların aparılması, koordinasiya edilməsi, kadr hazırlığının və tədrisinin təşkili istiqamətlərində geniş fəaliyyət göstərir.

2024-ci ildə də İnstitut əsas fəaliyyət istiqamətini Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”, Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın Texnologiya və innovasiyalar üzrə işçi qrupunun 2024-ci il üzrə Fəaliyyət Planı, Dövlət Proqramlarının icrası çərçivəsində müvafiq tədbirlər əsasında, Nazirliyin müvafiq şöbələri və struktur bölmələri ilə razılaşdırılmaqla qurmuşdur.

Təqdim olunan referativ toplu İqtisadi Elmi Tədqiqat İnstitutunun 2024-cü ildə apardığı elmi-tədqiqat fəaliyyətinə həsr olunmuşdur. Topluda İnstitutda 2024-cü il üzrə yerinə yetirilmiş işlərin qısa xülasələri verilmişdir.

# İŞ PLANI ÜZRƏ YERİNƏ YETİRİLMİŞ İŞLƏR

## 2024-CÜ İL ELMİ-TƏDQİQAT VƏ ANALİTİK TƏHLİL İŞLƏRİ

### İSTEHLAK MALLARI ÜZRƏ QİYMƏTLƏRİN DİAQNOSTİKASI VƏ QİYMƏT DƏYİŞİKLİKLƏRİNİN İQTİSADİ TƏSİRLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

***İcraya məsul şəxs:*** *Malik Mehdiyev*

***İcraçı:*** *Rauf Musayev*

Tədqiqat işində İstehlak malları üzrə qiymətlərinin əmələ gəlməsinə dair müxtəlif iqtisadi yanaşmalar icmal edilmiş, geniş məlumat bazası formalaşdırılmış, qiymətlərin diaqnostikasını xarakterizə etmək üçün İstehlak qiymətləri indeksindən və qiymət indeksi ilə fiziki həcm indeksi arasındakı əlaqələr statistik məlumatlar əsasında təhlili edilmişdir. Tədqiqatda həm də istehlak malları bazarının spesifik xüsusiyyətləri araşdırrılmış və onun qiymətlərin əmələ gəlməsində onun rolu öyrənilmişdir. Tədqiqat zamanı istehlak mallarına qiymətin əmələ gəlməsinin dünya təcrübəsi və onun Azərbaycanda tətbiqi məsələlərinə də baxılmışdır. Ölkə timsalında minimum istehlak səbətinin əsas komponentləri üzrə istehlak mallarına olan tələbatın ödənmə səviyyəsi hesablanmlş və tələbatın yerli istehsal hesabına ən az ödənilən mal qrupları aşkar edilmişdir. İstehlak mallarının qiymətindəki dəyişikliyin əhalinin rifahına təsirini qiymətləndirmək məqsədilə İstehlak mallarının qiyməti ilə real əmək haqqı və əmək məhsuldarlığı arasında əlaqə təhlil edilmiş və proqnozlaşdırılmışdır. Kənd təsərrüfatı məhsullarının istehsalında struktur dəyişmələri və onların məhsuldarlığa və qiymətlərə təsiri qiymətləndirilmişdir. Tədqiqat işində istehlak mallarının qiyməti ilə onların istehsalına çəkilən xərclər arasında əlaqənin bilavasitə öyrənilməsi məqsədilə 200-ədək məhsulun istehdalında istifadə edilən xammal və material sərfi normaları toplanmış və istehlak mallarının hər birinin istehsalındakı xərc komponentinin qiymətindəki dəyişikliyin onun istehsalçı qiymətinə təsirini müəyyən etmək üçün xüsusi cədvəllər hazırlanmışdır. Tələb və təklifin qeyri qiymət amilləri və onların istehlak mallarınının qiymətlərin dyişməsinə təsiri ekonometrik təhlil edilmişdir.

# XAM NEFT VƏ XAM NEFT EMALI MƏHSULLARININ QİYMƏTİNİN TƏNZİMLƏNMƏSİNİN AZƏRBAYCAN İQTİSADİYYATINA TƏSİRİDİR

***İcraya məsul şəxs:*** *Malik Mehdiyev*

***İcraçı:*** *Rauf Musayev*

Elmi tədqiqatın məqsədi neft və neft emalı məhsullarının qiymətlərinindəki dəyişikliklərin ölkə iqtisadiyyatına təsirinin müəyyən etməkdən ibarət olmuşdur.

Elmi tədqiqat işində xam neftin dünya bazar qiymətlərindəki dəyişmələr tədqiq edilmiş, dəyişmələrin səbəblərinin tələb və təklifdən daha çox digər detrminantlardan (alternativ enerji mənbələri və texnologiyadan) asılı olduğu və bunun dalğavari xarakter daşıdığı müəyyən edilmişdir; neft və neft emalı məhsulları istehsal edən müəssisələrinin istehsal gücləri, gəlir və xərcləri, habelə  və rentabelliyi sahəsində mövcud vəziyyətininin qısa xülasəsi aparılmışdır; Neft və neft emalı məhsulları istehsal edən müəssisələrinin istehsal gücləri, gəlir və xərcləri, habelə  və rentabelliyi sahəsində mövcud vəziyyətininin qısa xülasəsi verilmişdir; Ölkə üzrə neft və neft emalı məhsullarının qiymətinin tənzimlənməsi sahəsində mövcud vəziyyətin xülasəsi verilmişdir; Ölkə üzrə məhsul, iş və xidmətlərin bölüşdürülməsinin sahələrarası balansı əsasında xərc-buraxılış modeli qurulmuş, neft hasilatı və emalı sahələri dekompozisiya edilərək bu sahələrdəki qiymət dəyşikliklərinin ölkə iqtisadiyyatına təsirini simulyasiya etməyə imkan verən tarazlı qiymət modelinin xüsusi tipi hazırlanmışdır.

Sosial Hesablar Matrisi əsasında hazırlanmış ümumi multiplikator modelləri hazırlanmışdır. Hazırlanmış tarazlı qiymət modelinin qiymət multiplikatoru vasitəsilə neft hasilatı və emalı sahələrinindəki qiymət dəyişmələrinin ölkə və sahələr üzrə qiymət dəyişmələrinə (infflyasiyaya) təsiri qiymətləndirilmişdir.

Sosial Hesablar Matrisi əsasında hazırlanmış ümumi multiplikator modeli vasitəsilə, neft qiymətinin liberallaşdırılması şəraitində neft idxalının artırılması və əlavə investisiyalar yönəltməklə neft emalı məhsullarının istehsal güclərinin artırılmasının ölkə və sahələr üzrə makroiqtisadi göstəricilərə  təsiri qiymətləndirilmişdir.

Tədqiqatın elmi yeniliyi tədqiqat çərçivəsində ölkə timsalında 2021-ci ilin xərc buraxılış modelinin hazırlanması və vaxtilə ESRİ-də hazırlanmış bir sıra mühüm təsirlərin qiymətləndirilməsinə imkan verən praktik modellər platformasının yenilənməsindən, habelə

bu modellərin qiymətləri tariflə tənzimlənən məhsulların qiymətləindəki dəyişikliklərin digər sahələrdə qiymət dəyişmələrinə təsir dərəcəsini müəyyən etmək üçün tətbiq imkanlarının reallaşdırılmasıdır. Tədqiqatın digər elmi yeniliyi neftin dünya qiymətinin onun qiymət determinantlarından asılı olaraq proqnozlaşdıdırlmasından fərqli olaraq, qiymət tərddüdlərindəki dalğalara əsasnən proqnozlaşdıdırmasından ibarərdir.

## İDXALI ƏVƏZLƏNƏ BİLƏN MƏHSULLARIN MÜƏYYƏNLƏŞDİRİLMƏSİ VƏ İSTEHSAL İMKANLARINA BAXIŞ

***İcraya məsul şəxs:*** *Malik Mehdiyev*
***İcraçılar:*** *Rauf Musayev, Əli Əhmədov*

Tədqiat çərçivəsində əsasən İqtisadi mürəkkəblik indeksi ilə ölkədə istehsal oluna biləcək yeni məhsulların müəyyən edilməsi imkanları araşdırılmışdır. Bu məqsədlə ölkə üzrə 6 rəqəmli təsnifat kodu səviyyəsində ticarət məlumatları toplanmış və emal edilmişdir. Ölkə üzrə aşkar müqayisəli üstünlük indeksi 2023-cü ildə daxil olmaqla 6 rəqəmli təsnifat kodu səviyyəsində hesablanmışdır. İqtisadi mürəkkəblik indeksi konsepsiyasının metodologiyası öyrənilmiş və indeksin hesablanması ilə əlaqdar xüsusi alqoritm hazırlanmışdır. Tədqiqat zamanı  Harvard Böyümə Laboratoriyasının iqtisadi mürəkkəblik indeksi konsepsiyasına görə iqtisadi mürəkkəbliyi yuxarı olan ölkələr daha çox ixrac edir. Araşdırma zamanı bu qənaətə gəlinmişdir ki, daha çox ixrac etmək ölkənin iqtisadi inkişaf amili kimi çıxış edə bilməz . Belə ki, ölkə mürəkkəblik indeksi yüksək olan məhsul istehsal edə bilər, amma bu məhsulun istehsalı ölkədə yüksək əlavə dəyər yaratmaya da bilər. İqtisadi mürəkkəblik indeksi konsepsiyası yalnız xarici ticarətdə ixrac məlumatlarından istifadə edir. Ölkə daxilində istehsal olunan, amma ixrac edilməyən, mürəkkəblik indeksi yüksək ola bilən məhsulları, habelə xidmətlərin ixracını nəzərə ala bilmir. İqtisadi mürəkkəblik indeksi konsepsiyası əlavə dəyər ticarətini əlavə dəyər zənciri baxımından təhlil edə bilmir. Hazırda ölkənin idxal və ixracdan asılılığı idxal və ya ixracın ÜDM də payı göstəricisi ilə müəyyən edilir. Son onillikdə qlobal ticarətin inkişafı istehsalın artan beynəlmiləlləşməsi və parçalanması fonunda baş verir ki, bu da qlobal dəyər zəncirləri daxilində ölkələrin qarşılıqlı əlaqəsinin və qarşılıqlı asılılığının artmasına səbəb olur. Nəticədə, zəncirin sonundakı ixracatçı ilə yanaşı, bir çox ölkələrin istehsalçıları məhsul və ya xidmətin yaradılmasında

iştirak edərək, onların yaratdığı əlavə dəyəri ehtiva edən aralıq idxalı təmin edirlər. Nəticə etibarilə, ölkənin xarici ticarətdən əldə etdiyi qazanclar, ixrac və texnoloji potensialı, aşkar edilmiş müqayisəli üstünlüyü və s. əsasən onun şaquli inteqrasiyada necə iştirak etməsi və hansı əlavə dəyər yaratması ilə müəyyən edilməlidir. Bu cür qiymətləndirmələr həm iqtisadçılar, həm də praktiklər arasında getdikcə populyarlaşmaqdadır. Ölkənin inkişaf səviyyəsi ümumi ixrac və idxalın dövlətlərarası axınlarını dəyər və fiziki həcmdə qeydə alan xarici iqtisadi fəaliyyətin ənənəvi statistikası çərçivəsində mümkün olmadığından son illərdə əlavə dəyər ticarəti göstəricilərinin təhlili zərurətə çevrilmişdir. O, iqtisadi siyasətin işlənib hazırlanmasında istifadə oluna biləcək aşağıdakı əlavə məlumatları təqdim edir:

- İxrac və idxalın ənənəvi göstəriciləri ölkənin ixrac və idxaldan asılılıq dərəcəsini tam düzgün əks etdirmir, çünki asılılıq göstəricisinin sürətində xarici ticarət axınlarının ümumi həcmi, məxrəcdə isə ümumi daxili məhsulu göstərlir. Bu baxımdan, əlavə dəyər ticarəti məlumatlarından istifadə daha dəqiq qiymətləndirməyə imkan verir. Onlar həmçinin milli iqtisadiyyatın xarici şoklara məruz qalmasını təhlil etmək üçün istifadə edilə bilər:
- Milli valyutanın möhkəmlənməsi və ya zəifləməsinin xarici ticarət axınlarına təsirini anlamaq üçün ixracda yerli və idxal komponentlərinin payı vacibdir;
- İxracın iqtisadi artımın sürətləndirilməsinə töhfə vermək qabiliyyəti də əsasən onun tərkibindəki daxili komponentin payı və strukturu ilə müəyyən edilir;
- Sənaye siyasətinin işlənib hazırlanmasında ixracda əlavə dəyərin həcminin, onun strukturunun, habelə xarici və daxili komponentlərin göstəricilərindən istifadə edilə bilər. Öz növbəsində, ayrı-ayrı sahələrin, xüsusilə də xidmət sahələrinin ixracda əlavə dəyərin yaradılmasına verdiyi töhfənin, eləcə də onlar arasındakı əlaqənin qiymətləndirilməsi milli məhsulların xarici bazarlarda rəqabət qabiliyyətinin artım mənbələrini anlamaq üçün vacibdir.

2013-cü ildə İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) Ümumdünya Ticarət Təşkilatı (ÜTT) ilə birlikdə Əlavə Dəyərli Ticarət (TiVA) məlumat bazasını [14] yaratmışdır. 2018-ci ilə olan məlumata görə, o, 64 ölkə (bütün OECD ölkələri, Aİ28, G20, Şərqi və Cənub-Şərqi Asiyanın əksər ölkələri və bir sıra Cənubi Amerika ölkələri) və 34 sənaye və xidmət sektoru üzrə 46 göstəricidən ibarətdir. Xüsusilə bu bazada Rusiya və Qazaxıstanla bağlı məlumatlar var, lakin Azərbaycan orada təmsil olunmur. 2013-cü ildə dəyər zəncirlərində iştirak və iqtisadi inkişaf arasında əlaqəni təhlil edən UNCTAD-ın xüsusi araşdırması nəşr

olunmuşdur. Məlum olub ki, dəyər zəncirlərində iştirak iş yerlərinin yaradılmasına, biliklərin ötürülməsinə və iqtisadi artıma müsbət təsir göstərir. UNCTAD həmçinin əlavə dəyər ticarəti, əlavə dəyərin xarici və yerli komponentləri və dolayı əlavə dəyər kimi qlobal dəyər zəncirinə aid göstəriciləri ehtiva edən məlumat bazası yaratmışdır. Məlum olmayan səbəblərdən Azərbaycan haqqında da məlumat yoxdur.

Ölkədə istehsal oluna biləcək yeni məhsulların müəyyən edilməsi imkanlarının müəyyən edilməsi üçün aşağıdakı 5 məhsul çoxluqlarının siyahısı hazırlanmışdır:

- düyada istehsalı mövcud olan,
- ölkədə istehsal mövcud olan, amma ixrac edilməyən,
- ölkədə istehsalı mövcud olan olan və həm də ixrac olunan,
- ölkədə istehsalı mövcud olan, həm də idxal olunan,
- ölkədə istehsalı mövcud olmayan, amma idxal olunan.

Çoxluqlarının siyahılarının müqayisəsi nəticəsində ölkədə istehsalı olmayan məhsulların siyahısı konkretləşdirilmişdir. Belə yanaşma iqtisadi mürəkkəblik konsepsiyasına müvafiq yeni məhsulların seçilməsi metodologiyasına uyğun gəlməsə də sözügedən məhsul çoxluqlarının siyahısı tədqiqatın qarşısında duran “ölkədə istehsal olunmayan və idxalı əvəz edə bilən məhsulların siyahısının hazırlanması” tapşırığına uyğun hazırlanmışdır. İqtisadi mürəkkəblik konsepsiyasına müvafiq seçilmiş yeni məhsullar üzrə təkliflər isə ölkədə istehsal olunmayan məhsulların siyahısına uyğunlaşdırılmışdır. Belə ki yeni seçilmiş məhsul ölkədə istehsal olunmayan məhsulların siyahısında vardırsa təkliflərə də məhz həmin məhsullar salınmışdır.

Ölkədə istehsal olunmayan məhsulların siyahısını 10 rəqəmli səviyyədə hazırlamaq mümkün olmamışdır. Bu idxal barədə dəqiq məlumatların yalnız 6 rəqəmli səviyyədə konkretləşdirilməsinin mümkümlüyü ilə bağlı olmuşdur. 6-cı səviyyədən sonra məhsul növlərinin adı “digərləri” adı altında verilməsi ilə bağlı olmuşdur. Harvard böyümə laboratoriyası iqtisadi mürəkkəblik indeksləri barədə məlumatları isə 4 rəqəmli səviyyədə təqdim edildiyindən ölkədə istehsal olunmayan məhsulların 6 rəqəmli siyahısı iqtisadi mürəkkəblik konsepsiyasına müvafiq seçilmiş yeni məhsullar üzrə 4 rəqəmli səviyyəyə uyğunlaşdırılaraq təkliflər verilmişdir.

İETİ-də 6 rəqəmli səviyyədə yeni məhsullar üzrə konkret təkliflərin hazırlanması məqsədilə bütün işlərin yerinə yetirilməsinə baxmayaraq, son hesablamaların aparılması

kompüterlərin iri həcmli məlumatları (5870x5870 ölçülü matrislərin vurulması və məxsusi ədədlərinin və vektorlarının tapılması üçün hazırlanmış alqoritmin hazırlanması zərurəti ortaya çıxmışdır.

## REAL SEKTORUN MONİTORİNQİ (ÜDM QISA MÜDDƏTLİ PROQNOZUNUN HAZIRLANMASI)

***İcraya məsul şəxs:*** *Malik Mehdiyev*
***İcraçılar:*** *Rauf Musayev, Elmira Bağırova, Əli Əhmədov*

Tədqiqat çərçivəsində real sektorun monitorinqinin aparılması üzrə beynəlxalq təcrübə araşdırılmış və müəyyən edilmişdir ki, monitorinq göstəriciləri iqtisadiyyatın sektorları və onların apardığı əməliyyatlar, sektorlarda və sektorlararası axınlar və ehtiyatlar səpgisində təşkil edilməlidir. Bu məqsədlə iqtisadiyyatın sektorları və onların apardığı əməliyyatlar, sektorlarda və sektorlararası axınlar və ehtiyatların təsnifatı öyrənilmiş və Monitorinq zamanı təsnifata uyğung dəyişikliyin sürəti və intensivliyini xarakterizə edən əsas göstəricilərin hesablanması metodologiyası icmal edilmişdir. Monitorinq göstəriciləri əsasında aparılan təhlillərin metodologiyası və yarana bilən risklər və onların nəticələri, iqtisadi göstəricilərin qarşılıqlı əlaqəsinin iqtisadi tsikllərdə təzahühü və onun müəyyən edilməsi metodları öyrənilmişdir. Monitorinq aparmaq üçün aylıq və illik məlumat bazası və onun əsasında idarə olunan monitorinq sisteminin modelinin hazırlanması imkanları nəzərdən keçirilmişdir. Müəyyən edilmişdir ki, aşağıdakı istiqamətlər üzrə məlumat bazaları hazırlanmalıdır:

- Real sektorun məlumat bazası və monitorinqi
- Xarici sektorun məlumat bazası və monitorinqi
- Dövlət sektorunun məlumat bazası və monitorinqi
- Monetar sektorun məlumat bazası və monitorinqi
- Digər göstəricilərin məlumat bazası və monitorinqi

İqtisadiyyat üzrə törəmə göstəricilər və onların monitorinqi

Tədqiqat çərçivəsində 2007-2023-cü illəri əhatə edən aylıq məlumat bazası formalaşdırılmışdır. Məlumat bazası əsasında ÜDM-in qısa müddətli aylıq proqnozu proqnozu verilmişdir.

## 2021-Cİ İLİN ÜZƏRİNDƏN SHM QURULMASI

***İcraya məsul şəxs:*** *Malik Mehdiyev*

***İcraçı:*** *Elmira Bağırova*

Tədqiqat çərçivəsində çox əmək tutumlu bir iş olan məhsul iş və xidmətlərin sahələrarası balansları əsasında 2001, 2006, 2011, 2016, 2021-ci illər üzrə sahələr arası balansın xərc-buraxılış modelləri, məhsul iş və xidmətlərin sahələrarası balansları və milli hesablar sisteminin göstəriciləri əsasında 2001, 2006, 2011, 2016, 2021-ci illər üzrə sosial hesablar matrisinin ümumi multiplikator modelləri və milli hesablar sisteminin göstəriciləri əsasında 1995-2023-cü illər üzrə milli hesablar martisləri (ölkənin iqtisadi pasportu kimi sayıla bilən) hazırlanmışdır. Hazırlanmış modellər bir sıra tədqiqatlarda təhlil aləti kimi müvəffəqiyyətlə tətbiq edilməklə yanaşı, iqtisadiyyatın şaxələndirilməsi, iqtisadi artımın hesablanması, dəyər zəncirinin genişləndirilməsi məqsədilə gələcəkdə institutda aparılacaq tədqiqatlar üçün mühüm analitik alət rolunu oynayacaqdır.

## ELMİ POTENSİALIN GÜCLƏNDİRİLMƏSİ SAHƏSİNDƏ TƏŞVİQ MEXANİZİMLƏRİNİN FORMALAŞDIRILMASI SAHƏSİNDƏ BEYNƏLXALQ TƏCRÜBƏNİN ÖYRƏNİLMƏSİ

***İcraya məsul şəxs****: Fərhad Mikayılov*

***İcraçı:*** *İntizar Rüstəmova*

Elmi tədqiqatların artması, qlobal məkana inteqrasiya, Azərbaycan elminin inkişafı və dünya səviyyəsində mövqeyinin yüksəlməsi strategiya üzrə sözügedən tədbirin əsas nəticə indikatorları kimi müəyyənləşdirilmişdir.

Tədqiqat işi çərçivəsində inkişaf etmiş ölkələrin elmi təşkilatların fəaliyyətinin qiymətləndirilməsi sahəsində təcrübəsi araşdırılmışdır. Araşdırma nəticəsində müəyyən olunmuşdur ki, bir çox inkişaf etmiş sənaye ölkələrində tədqiqat qruplarının və proqramlarının qiymətləndirilməsi əsasən bibliometrik göstəricilər üzərində qurulur. Bu məlumatlar yalnız analitik təhlil üçün deyil, həm də müəyyən layihələrə və təşkilatlara maliyyə vəsaiti ayrılarkən qərar qəbul etmədə vacib amil kimi istifadə olunur. Elmi potensialın gücləndirilməsində dövlət sektorunun elmə dəstəyinin vacibliyi müəyyən olunsa da, əksər inkişaf etmiş ölkələrdə özəl sektorun da elm sahəsinə yüksək investisiyalar

yatırması müşahidə olunur. Dövlət qurumları xüsusən yüksək əməkhaqqı və ya müəyyən imtiyaz və güzəştlərin tətbiqi vasitəsilə elmin inkişafına dəstək olurlar. Ölkələr tədqiqatların kommersiyalaşdırılması, yüksək ixtisaslı kadrların inkişafı, xarici mütəxəssislərlə əməkdaşlıq və elmi fəaliyyətin cəmiyyətə konkret fayda gətirməsi istiqamətində innovativ yanaşmalar tətbiq edirlər.

## TƏHSİL SİSTEMİNDƏ ELMİ TƏDQİQATLARA VƏ İNKİŞAF LAYİHƏLƏRİNƏ AYRILAN XƏRCLƏRİN ARTIRILMASI VƏ RƏQABƏTLİ ƏSASDA LAYİHƏLƏRİN MALİYYƏLƏŞDİRİLMƏSİ ÜZRƏ BEYNƏLXALQ TƏCRÜBƏNİN ÖYRƏNİLMƏSİ

**İcraya məsul şəxs:** *Fərhad Mikayılov*
**İcraçılar:** *Həbibə Cabbarova, Səbinə Hüseynova*

Elmi tədqiqat və inkişaf layihələrinin maliyyələşməsinə dair yeni mexanizmlərin tətbiqi və elmi tədqiqat və inkişaf layihələrinə ayrılan xərclərin ÜDM-də payının dünya üzrə orta səviyyəyə çatdırılması üçün beynəlxalq təcrübənin araşdırılması tədqiqat işinin əsas məqsədi olmuşdur.

Tədqiqat işi çərçivəsində beynəlxalq təcrübə üzrə təhsil sistemində elmi tədqiqat və inkişaf layihələrinin maliyyələşdirilməsi metodları araşdırılmış, Estoniya, Almaniya, ABŞ, İngiltərə və digər ölkələrin layihə maliyyələşdirilməsi üzrə mexanizmləri öyrənilmişdir. Təhsil sistemində tədqiqat və inkişafın maliyyələşdirilmə ənənələri araşdırılaraq əks etdirilmiş, blok maliyyələşdirilməsi, institusional maliyyələşdirmə, performans əsaslı maliyyələşdirmə növləri müqayisəli əsasda təhlil edilmişdir. Bu sahədə tədqiqat və inkişaf maliyyələşdirməsinin subyektləri beynəlxalq təcrübə əsasında müəyyənləşdirilmiş, xüsusən elm fondlarının əhəmiyyəti araşdırılmışdır. Təhsil sistemində tədqiqat və inkişaf xərclərinin qiymətləndirilməsi şərtləri müəyyənləşdirilmiş, müxtəlif ölkələrin tədqiqat və inkişaf xərclərini maliyyələşdirməsi sahəsində ən yaxşı təcrübələri əks olunmuşdur. Xüsusən, Qərb ölkələrində “mükəmməllik təşəbbüsü” (excellence initiatives) proqramı ilə universitetlərdə tədqiqatçıların və tədqiqat layihələrinin maliyyələşdirilməsi təcrübəsi təhlil edilmişdir. Azərbaycanda təhsil sistemində tədqiqatların cari maliyyələşdirilmə mexanizmi araşdırılmış, xüsusilə “tədqiqat universiteti” konsepsiyasının xarici təcrübə olan “mükəmməllik universitetləri” ilə oxşarlığı vurğulanmışdır.

## BARAMAÇILIQ VƏ İPƏKÇİLİK SAHƏSİNDƏ KLASTER YANAŞMANIN TƏTBİQİNİN DƏSTƏKLƏNMƏSİ ÜÇÜN BEYNƏLXALQ TƏCRÜBƏ ƏSASINDA TƏKLİFLƏRİN HAZIRLANMASI

***İcraya məsul şəxs:*** *Nigar Ələsgərova*
***İcraçılar:*** *Faiq Qasımlı, Səbinə Məmmədli, Səbinə Hüseynova*

Tədqiqatın məqsədi beynəlxalq təcrübənin təhlili əsasında baramaçılıq və ipəkçilik sahəsində klaster yanaşmanın tətbiqinin dəstəklənməsinə dair təkliflərin hazırlanmasıdır. Tədqiqatın obyekti: baramaçılıq və ipəkçilik sahəsidir. Tədqiqatın predmeti: klaster yanaşmanın tətbiqinə dəstək tədbirləri təşkil edir. Tədqiqatlar nəticəsində məlum olub ki, bu gün Azərbaycanda perspektivli sahə kimi qiymətləndirilən baramaçılıq və ipəkçiliyin inkişafına xüsusi diqqət var. Göstərilən dəstək tədbirlərinin nəticəsi olaraq 2023-cü ildə yerli kümçülər tərəfindən 357.0 ton yaş barama təhvil verilibdir ki, bu da əvvəlki illə müqayisədə 4.6% yüksək nəticədir. Sözügedən Dövlət Proqramının icrası nəticəsində bu göstəricinin 2025-ci ilədək  6,0 min tona çatdırılması nəzərdə tutulur.
Klaster yanaşmadan istifadə inkişaf etmiş iqtisadiyyatların əsas xüsusiyyəti olub, ona daxil olan təşkilatların sinergetik effekt əldə etmələrinə, ayrı-ayrı təsərrüfat subyektləri ilə müqayisədə bütün sistemin rəqabət qabiliyyətinin artırılmasına, innovasiyayönümlü olmasına imkan verir. Eləcə də, baramaçılıq və ipəkçilik sahəsində klaster yanaşması, bu sektorda fəaliyyət göstərən müxtəlif subyektlərin bir araya gələrək resursları və bilikləri paylaşması prinsipinə əsaslanmaqla bir çox üstünlüklərə malikdir. Bu baxımdan tədqiqat işində ölkədə baramaçılığın mövcud vəziyyəti, klaster anlayışı, klaster yanaşmasının üstünlükləri, bu sahədə qabaqcıl ölkə təcrübələrinin təhlili aparılmışdır.

## BARAMA İSTEHSALI VƏ EMALI SAHƏSİNDƏ İNNOVATİV LAYİHƏLƏRİN DƏSTƏKLƏNMƏSİ ÜÇÜN BEYNƏLXALQ TƏCRÜBƏ ƏSASINDA TƏKLİFLƏRİN HAZIRLANMASI

***İcraya məsul şəxs:*** *Nigar Ələsgərova*
***İcraçılar:*** *Faiq Qasımlı, Səbinə Məmmədli, Səbinə Hüseynova*

Beynəlxalq təcrübənin təhlili əsasında demək olar ki, dünyanın bir çox ölkələrində artıq barama istehsalı və emalı sahəsində ənənəvi üsullara deyil, innovativ texnologiyaların tətbiqinə, proseslərin avtomatlaşdırılmasına, yeni məhsuldar və xəstəliklərə qarşı davamlı ipəkqurdu növlərinin və ekoloji təmiz məhsul istehsalına xüsusi üstünlük verilir.

Qədim tarixə malik olan barama istehsalının və emalının innovativ üsullarla inkişafı və şaxələndirilməsi ölkədə müasir texnologiyalara əsaslanan rəqabətqabiliyyətli istehsal və emal müəssisələrinin fəaliyyətə başlaması, eləcə də yeni ixrac imkanlarının yaradılması baxımından önəmli rol oynayır. Bu baxımdan tədqiqat işində ölkədə baramaçılığın mövcud vəziyyəti, qlobal miqyasda barama istehsalı və emalı sahəsində tətbiq olunan yeni innovativ texnologiyalar, yanaşmalar araşdırılmış, müxəlif ölkə təcrübələri təhlil edilmişdir.

Tədqiqatın məqsədi: beynəlxalq təcrübənin təhlili əsasında barama istehsalı və emalı sahəsində innovativ layihələrin dəstəklənməsinə dair təkliflərin hazırlanmasıdır. Tədqiqatın obyekti: barama istehsalı və emalı sahəsidir. Tədqiqatın predmeti: bu sahənin inkişafı üçün dəstək tədbirləri təşkil edir. Hesabatın strukturu giriş, 4 bölmə, nəticə və ədəbiyyat siyahısından ibarətdir.

## İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİ VAHİDLƏRİ ÜZRƏ SOSİAL-İQTİSADİ PASPORTLARIN HAZIRLANMASI

***İcraya məsul şəxs:*** *Fərhad Mikayılov*

***İcraçılar:*** *Səbinə Məmmədli, Emin Mustafayev, Nigar Ələsgərova, Həbibə Cabbarova, Səbinə Hüseynova, Rauf Musayev, Nigar Əhmədli, Emil Qasımov*

İşin məqsədi 30 illik işğal dövründə tamamilə dağdılmış, məhv edilmiş “Şərqi Zəngəzur” və “Qarabağ” iqtisadi rayonlarının iqtisadi inkişafına nail olunması, infrastrukturun bərpası, əhalinin köçürülməsi və köçürülən əhalinin məşğulluğunun təmin olunmasına töhfə verməkdir.

Tədqiqat işi çərçivəsində ilk növbədə ərazi pasportlarının hazırlanması istiqamətində beynəlxalq təcrübə öyrənilmişdir. Daha sonra məlumatların əldə edilmədi məqsədilə Statistika Komistəsi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Qaçqın və Məcburi Köçkünlərlə İş üzrə Dövlət Komitəsi və digər müvafiq qurumlara məktublar göndərilmişdir. Həmçinin

ətraflı informasiya əldə etmək məqsədilə tədqiqat qrupunun Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına səfərləri olmuşdur.
İlkin olaraq hazırlanan pasportlarda ərazilərin sosial, iqtisadi, coğrafi məlumatları öz əksini tapmışdır.

## SÜNİ İNTELLEKTİN TƏTBİQİ VƏ ONUN İQTİSADİYYATA GÖZLƏNİLƏN TƏSİRLƏRİ

***İcraya məsul rəhbər:*** *Emil Qasımov*
***İcraçılar:*** *Nigar Ələsgərova, Zamiq Aslanov, Səfər Hüseynov, Turan Cəfərov*

Tədqiqat işinin yerinə yetirilməsi prosesində həm inkişaf etmiş ölkələrin, həm də inkişaf etməkdə olan ölkələrin, xüsusilə Amerika Birləşmiş Ştanlarının, Qərbi Avropa ölkələrinin təcrübələri öyrənilmiş və Azərbaycan şəraiti üçün məqbul hesab olunan struktur müəyyən olunmuşdur.
Aparılan araşdırma və təhlillər nəticəsində Süni intellektin tətbiqinin iqlim dəyişikliklərinə, faydalı qazıntı ehtiyatlarının istifadəsinə, o cümlədən ölkə əhalisini, əmək ehtiyatları, məhsul buraxılışı, sənaye, kənd təsəsrrüfatı, tikinti, nəqliyyat, rabitə, təhsil, elm, mədəniyyət, turizm, ticarət və xidmət, ekologiya sahələrinin əsas göstəricilərinə 2030-cü ilə kimi təsirlərinin diaqnostikası aparılmışdır. Bu sahədə mövcud olan beynəlxalq təşkilatların yanaşmaları, indeksləri təhlil edilmiş, eyni zamanda dünya miqyasında süni intellektin tətbiqinin artması zamanı iqtisadiyyatının strukturuna, əmək bazarına və digər sahələrə təsirləri öyrənilib. Süni intellektin tətbiqinin nəticəsində yarana biləcək problemlərin səbəblərinin aradan qaldırılması istiqamətində təklif və tövsiyələr işlənilmişdir.

## RƏQƏMSAL İQTİSADİYYATA KEÇİD XÜSUSİYYƏTLƏRİ: BOŞLUQLAR, TƏSİRLƏR, HƏLLƏR

***İcraya məsul şəxs****: Manaf Bağırzadə*
***İcraçı:*** *Güney Mirzəyeva*

Tədqiqat işində əsas istiqamət olaraq rəqəmsal iqtisadiyyata keçid mərhələsində yaranan boşluqlar təhlil edilmişdir. Belə ki, tədqiqat işində rəqəmsal iqtisadiyyata keçidin gələcək

hədəfləri anlayışı ilə onun indiki dövr üçün olan boşluqları eyniləşdirilmişdir. Tədqiqatın aparılmasında azərbaycanca, türkcə və ingiliscə elmi ədəbiyyatlar nəzərdən keçirilmiş, yerli və beynəlxalq təşkilatların hesabatları təhlil edilmişdir. İş nəzəri xarakter daşıyaraq bu prosesdə iştirak edən elementlərin statistik təhlilinə əsaslanmışdır.

Tədqiqat işində rəqəmsal iqtisadiyyatda keçid istiqamətində yaranan boşluqların onun gələcək hədəfləri olaraq eyniləşdirilərək analiz edilmişdir.

## İQTİSADİ TƏHLİLDƏ SÜNİ İNTELLEKTİN TƏTBİQİ İMKANLARI VƏ MÖVCUD PROBLEMLƏR

***İcraya məsul şəxs**: Manaf Bağırzadə*
***İcraçı:** Nihalə Musazadə*

Tədqiqatın əsas məqsədi, iqtisadi təhlillərdə süni intellektin tətbiqini, imkanlarını və praktiki nümunələrinin öyrənilməsidir. Əlavə olaraq makro və mikro iqtisadi təhlillərin süni intellekt tətbiqləri göstərilmişdir. Araşdırma nəticəsində aydın olmuşdur ki, süni intellektin ən geniş istifadə edildiyi iqtisadi sahələrdən biri də maliyyə sahəsidir. Tədqiqatda süni intellektin iqtisadi təhlillərdə potensiyalının tam təyin edilməsi üçün, istifadə olunma məhdudiyyətləri və problemləri araşdırılmışdır. Problemlər çərçivəsində süni intellektin “qara qutu” və “ağ qutu” modelləri vurğulanmış və müqayisəli qiymətləndirilməsi aparılmışdır.

Tədqiqat əsasında süni intellektin sahələrinin iqtisadi təhlillərdəki üstünlükləri və çatışmazlıqları təyin edilmişdir. Belə ki, təyin olunan bəzi çatışmazlıqlar, iqtisadi təhlillərdə süni intellektin alternativlərinin üzərində dayanmasına əsas yaradır. Bu çərçivədə iqtisadi təhlillərdə istifadə olunan proqram təminatı və proqram dili fərqli təhlil modelləri çərçivəsində qiymətləndirilmişdir.

Tədqiqatın nəticələrinə əsasən, xüsusi ilə elmi və davamlığı ilə seçilən iqtisadi təhlillərdə ağ qutu və izah edilə bilən süni intellekt modeli xüsusiyyətlərini daşıyan Excel, Stata, SAS, EViews, Python, R, MATLAB, SPSS kimi proqram təminatı və proqramlaşdırma dillərindən istifadə edilməsi məqsədə uyğun olduğunu bildirmək olar.

## RƏQƏMSAL İQTİSADİYYATIN İQTİSADİ ARTIMA TƏSİRİNİN ÖLÇÜLMƏSİ

***İcraya məsul şəxs:*** *Manaf Bağırzadə*

***İcraçı:*** *Nihalə Musazadə*

Tədqiqat işində Rəqəmsal iqtisadiyyatın iqtisadi artıma təsirinin ölçülməsi nəzərdən keçirilmişdir.Tədqiqat nəticəsində Rəqəmsal Təchizat və İstifadə Cədvəlləri (SUT) strukturu araşdırılıb, bu cədvəllərin müxtəlif iqtisadi fəaliyyətlərin təchizatını və istifadəsini izlədiyini və bu fəaliyyətlərin hansı sektorlara daxil olduğu və hansı sənayelərin bu fəaliyyətlərdən faydalandığı təhlil olunmuşdu.

Tədqiqatda həmçinin DESİ metodologiyası nəzərdən keçirilmiş, Rəqəmsal Təchizat və İstifadə Cədvəlləri (SUT) və DESI çərçivələrin sənayeni qiymətləndirmək üçün ən populyar və etibarlı olduğu araşdırılmışdır.

Rəqəmsal iqtisadiyyatın ölçülməsi üçün bokçeyn, süni intellekt və Əşyaların İnterneti (IoT) kimi yeni alətlər və metodologiyalar da təhlil edilmişdir. Rəqəmsal iqtisadiyyatın çoxölçülü təbiətindən irəli gəldiyini: rəqəmsallaşma bir çox mal və xidmətlərin istehsalına, sifarişinə, çatdırılmasına və istehlakına təsir etdiyi araşdırılmışdır.

## AZƏRBAYCANDA “YAŞIL UNİVERSİTET” POTENSIALI TƏDQİQATI

***İcraya məsul şəxs:*** *Fərhad Mikayılov*

***İcraçı:*** *Emin Mustafayev*

Ətraf-mühitin qorunması qlobal səviyyədə ən əhəmiyyətli mövzulardan biridir. Belə ki, İqlim dəyişikliyi və onun təsirlərinə qarşı mübarizə üzrə təcili tədbirlər görmək BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri arasında da yer almaqdadır. Bütün sahələrdə olduğu kimi, təhsil müəssisələrində də, ətraf mühitin müdafiəsi məsələsi dayanıqlılıq nöqteyi-nəzərindən vacibdir.

UNESCO və UNECE kimi beynəlxalq təşkilatlar dayanıqlı inkişaf üçün yaşıl təhsilin önəmini vurğulayırlar. Avropa Birliyi yaşıl keçid və iqlim birliyi üçün təhsil kimi proqramlarla təhsil sahəsindəki maraqlı tərəfləri dayanıqlı təhsilə yönləndirməyə çalışmaqdadır.

2010-cu ildən tətbiq edilən qlobal miqyasda ali təhsil müəssisələrinin yaşıllıq sıralamasını müəyyənləşdirən UI GreenMetric World University Rankings araşdırılmış, yaşıl universitet

statusunu əldə etmək üçün tələb olunan beynəlxalq kriteriya və indikatorlar araşdırılmışdır. Azərbaycanda belə potensiala malik universitetlər müəyyən edilmişdir.
Tədqiqat işinin sonunda ölkəmizdə yaşıl universitet konsepsiyasının tətbiqi üçün konkret hədəflər və addımlar üzrə tövsiyələr irəli sürülmüşdür.

## "AÇIQ ELM" PLATFORMASININ YARADILMASI ÜZRƏ TƏKLİFLƏR

***İcraçı:*** *Arzu Hüseynova*

Dövlət və ya özəl, beynəlxalq və ya yerli donorlar tərəfindən maliyyələşən elmi tədqiqat layihələrinin vahid baza altında toplanması və beynəlxalq bazalara transformasiya edilməsidir. Azərbaycan alimlərinin elmi işlərini (məqalə, tədqiqat hesabatı, tezis, çıxış və s.) vahid məkanda toplamaq, uzun müddətli şəkildə qorumaq, indeksləşdirmək, təsnif etmək və internet üzərindən daima əlçatan etmək missiyasını həyata keçirir. Bu fəaliyyət istiqamətini həyata keçirmək üçün "açıq elm" vahid platforması hazırlanması və ona xidmət edəcək bölmə yaradılması təklifi işlənmişdir. Vahid platformada yerləşdirilən resurslar "Creative Commons" lisenziyası altında istifadəyə verilməli və hüquqlar qorunmalıdır.
Azərbaycanda hələ də müxtəlif elm sahələri üzrə akademik nəşrlərin, yerli elmi jurnalların, tədqiqatçıların və alimlərin elmi iş və materiallarının, ən son elmi-texnoloji yeniliklər barədə məqalələrin toplandığı, tələbələr, akademik və tədqiqatçılar, eləcə də digər maraqlı şəxslər üçün informasiya mənbəyi rolunu oynaya biləcək vahid elektron elmi baza mövcud deyildir. Ölkəmizdə bu cür akademik platformaların olmaması tədqiqat nəticələrinin yayılmasını və tanınmasını, elmi məlumatlara çıxışı və tədqiqatların aparılması potensialını məhdudlaşdırır. Ona görə də belə platformaların yaradılması Azərbaycan elminin inkişafı və beynəlxalq elmi mühitə inteqrasiyası istiqamətində atılmalı olan mühüm addımlardan biridir.
"Açıq elm" vahid platformasının yaradılması üzrə təqdimatın məqsədi elmi-texniki məlumatların və müvafiq hesabatların toplanması, onların transfer bazalarına çıxışının təmin edilməsi üçün zəruri tədbirlərin görülməsi üzrə beynəlxalq təcrübəni və yerli durumu qiymətləndirmək, Azərbaycan Respublikasında öncül elmi istiqamətlərlə bağlı digər uyğun təkliflərin işlənməsindən ibarətdir.

# ELMİ VƏ PRAKTİKİ NƏŞRLƏR

## İNSTİTUTUN KEÇDİYİ ELMİ YOL – 60. Seçilmiş məqalələr (2000-2020-ci illər)

***Baş redaktor:*** *Şahin Sadıqov*

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi İqtisadi Elmi Tədqiqat İnstitutunun (ESRİ) 60 illik yubileyi ilə əlaqədar hazırlanan bu kitab İnstitutun keçdiyi uzun 60 illik yolu elmi fəaliyyətini işıqlandırmış. 2000- 2020-ci illərdə İnstitutun müxtəlif nəşrlərində iqtisadiyyatın müxtəlif aspektlərinin təhlilinə həsr olunmuş və indi də aktual olan seçilmiş məqalələrini çap olun dur.

## ELMİ FƏALİYYƏTİN 60 İLİ: KEÇMİŞDƏN GƏLƏCƏYƏ

***Baş redaktor:*** *Şahin Sadıqov*

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi İqtisadi Elmi Tədqiqat İnstitutunun (ESRİ) 60 illik yubileyinə həsr olunan bu kitab real tarixi faktlara, arxiv sənədlərinə, İnstitutun 60 il ərzində yerinə yetirdiyi elmi-tədqiqat işləri hesabatlarına əsaslanaraq hazırlanmışdır.

## “AZƏRBAYCANDA İQTİSADİ İSLAHATLARIN HƏYATA KEÇİRİLMƏSİ XÜSUSİYYƏTLƏRİ VƏ PROBLEMLƏRİ” ELMİ ƏSƏRLƏR TOPLUSU XXII BURAXILIŞ

***Baş redaktor:*** *Şahin Sadıqov*

Elmi əsərlər toplusunun 2024-cü il buraxılışı Azərbaycanda 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edildiyi və Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ölkəmizin ev sahibliyi nəzərə alınaraq “Yaşıl iqtisadiyyat” mövzusuna həsr edilmişdir.

## "YENİ NƏSİL İQTİSADİYYAT: ÇAĞIRIŞLAR VƏ PERSPEKTİVLƏR" BEYNƏLXALQ ELMİ VƏ PRAKTİKİ KONFRANS MATERİALLARI

Konfrans materialları 04 oktyabr 2024-cü il. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin İqtisadi Elmi Tədqiqat İnstitutu olaraq Azəbaycanın COP29-a ev sahibliyi və İnstitutumuzun fəaliyyətinin 60 illiyi çərçivəsində "Yeni Nəsil İqtisadiyyat: Çağırışlar və Perspektivlər" mövzusunda keçirilən 3-cü İƏT Beyin Mərkəzləri Forumunun materialları nəşr olunmuşdur. Nəşrdə "Yaşıl inkişaf: enerji, infrastruktur və milli strategiyalar", "Yeni iqtisadi düşüncə və rəqəmsallaşma" və "Yeni nəsil iqtisadiyyatın təsir dairəsində" istiqamətləri üzrə materiallar yer almışdır.

## "YENİ NƏSİL İQTİSADİYYAT: RƏQƏMSALLAŞMA VƏ İNKİŞAF" KİTABI

***Müəllif:*** *Arzu Hüseynova*

Kitabda "yeni nəsil iqtisadiyyat" anlayışı, onun xüsusiyyətləri, prinsipləri, təsnifatı açıqlanıb, "yeni" nəslin xüsusiyyətləri və müqayisəsi təqdim edilib. Rəqəmsal iqtisadiyyat, rəqəmsallaşma və onun inkişaf yolu, rəqəmsal texnologiyalar və son trendlər, rəqəmsal transformasiya haqqında geniş məlumat verilib, yeni iqtisadiyyatın tələbləri və ona uyğun səriştə və bacarıqlar üzrə yanaşmalar təqdim edilib
.

## "YAŞIL" BACARIQLAR

**(Yaşıl İqtisadiyyat Ekoloji və iqtisadi krizlərə qarşı antiböhran idarəetmə modeli (elmi-populyar kollektiv monoqrafiya, Bölmə IX)**

***Müəllif:*** *Arzu Hüseynova*

Tədqiqatın əsas məqsədi "yaşıl" bacarıqların təsnifatını aparmaq və bu bacarıqların iqtisadi inkişafdakı rolunu Azərbaycan kontekstində təhlil etməkdir. Tədqiqatda keyfiyyət analizi və təsviri metodologiya tətbiq olunmuşdur. Beynəlxalq təşkilatların hesabatları, statistik

məlumatlar və müxtəlif tədqiqat nəticələri müqayisə edilərək yaşıl bacarıqların inkişafı üzrə yanaşmalar təhlil edilir. Araşdırmada Dünya Bərabərsizlik Hesabatındakı rəqəmlərdən istifadə olunmuş, nəzəri hissənin əsasını bu mövzuda müxtəlif çap edilmiş məqalələrdən əldə edilmiş ideyaların ümumiləşdirilməsi əsasında müəllifin baxışları təşkil etmişdir. Məqalədə (1) yaşıl bacarıqların mahiyyəti və təsnifatı, (2) yaşıl iş yerlərinin xüsusiyyətləri və (3) bacarıq boşluqlarının aradan qaldırılması məsələlərinə baxılmışdır.

**ECONOMIC COOPERATION ORGANIZATION (ECO) ECONOMIC JOURNAL (İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ (İƏT)"İQTİSADİYYAT" JURNALI), Cild 1, buraxılış 9, 2024**

***Baş redaktor:*** *Arzu Hüseynova*

Jurnalın bu buraxılışda sosial-iqtisadi inkişaf tendensiyaları, regional inteqrasiya və İƏT ölkələrinin iqtisadi potensialı daxil olmaqla bir çox mövzuları əhatə edən hərtərəfli analitik məqalələr təqdim olunur. Jurnal qlobal iqtisadi çağırışlara, bu çağırışların bilik mübadiləsinə və əməkdaşlıq mədəniyyətini inkişaf etdirən regional təsirlərinə xitab edir. Jurnalın əhatə dairəsinə ticarət, investisiya, sənaye, enerji, nəqliyyat, infrastrukturun inkişafı, texnoloji irəliləyişlər və maliyyə əməkdaşlığı kimi bir sıra iqtisadi mövzular daxildir

**"İNFRASTRUKTUR ƏLAQƏLƏRİNİN GÜCLƏNDİRİLMƏSİ: TÜRK DÜNYASININ NƏQLİYYAT VƏ ENERJİ ƏLAQƏLƏRİNDƏ AZƏRBAYCANIN ROLU**

***Müəlliflər:*** *Səbinə Məmmədli, Azər Hüseynli, İntizar Rüstəmova, Turan Cəfərov*

Türk Dövlətləri Təşkilatının Türk Akademiyasının dəstəyi ilə nəşr olunan "Türk iqtisadiyyatları haqqında hesabat: Türk Dövlətləri arasında nəqliyyat və enerji əlaqələrinin gücləndirilməsi" hesabatının "İnfrastruktur əlaqələrinin gücləndirilməsi: Türk dünyasının nəqliyyat və enerji əlaqələrində Azərbaycanın rolu" başlıqlı IV fəsli yazılmışdır.

**Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi**

İQTİSADİ
ELMİ
TƏDQİQAT
İNSTİTUTU

*Həsən Bəy Zərdabi Prospekti,196, AZ1122, Bakı şəhəri, Azərbaycan Respublikası,*
***Tel.:*** *+99412 4308933,* ***Faks:*** *+99412 4300215,*
***İnternet səhifə:*** *www. esri.gov. az*